# Bədirxan ƏHMƏDLİ-70



Hörmətli Bədirxan Əhmədli!

Sizi - tanınmış ədəbiyyatşünas alimi 70 illik yubileyiniz münasibətilə təbrik edirik. Siz Azərbaycan Pedaqoji İnstitutunda (indiki ADPU) aldığınız filoloji təhsildən (1973-1977) sonra beş il təyinatla Sabirabad rayonunun Abdulabad kənd orta məktəbində müəllim kimi fəaliyyətə başlamısınız. Bundan sonra Bakıya gələrək Nazirlər Kabineti yanında Baş Arxiv İdarəsində paleoqraf, baş paleoqraf və şöbə müdiri olmusunuz. Nizami Gəncəvi adına Ədəbiyyat İnstitunun aspiranturasını bitirərək "Sabit Rəhmanın satirası" mövzusunda dissertasiya müdafiə edərək (1986) filologiya elmləri namizədi elmi dərəcəsi almısınız. İlk yazılarınızdan cümhuriyyətçi mövqe ilə tanınmış, sovet ideolojisinin qadağan etdiyi repressiya olunmuşların həyatı və yaradıcılığından yazmısınız. 1990-cı ildə ilk müstəqil qəzetlərdən olan "Vətən səsi"ndə şöbə müdiri kimi çalışmısınız. İlk dəfə olaraq "Gülüstan" və "Türkmənçay" müqavilələrini tərcümə edərək (Seyran Sarıvəlli ilə birgə) geniş oxucu kütləsinə təqdim etmisiniz. Bir qədər sonra isə sizi Milli Ordu sıralarında baş leytenant kimi daxil olmusunuz. 1992-ci ilin fevralından Azərbaycan Respublikası Müdafiə Nazirliyinin orqanı "Xalq Ordusu" (sonra "Azərbaycan ordusu") qəzetində şöbə müdiri və baş redaktor müavini işləmisiniz. Sizin cəbhədən yazdığınız məqalələr hərbi jurnalistikanın ilk nümunələri kimi bu gün də dəyərlidir. "Hərbi marşlar" (B., 1998) kitabınız orduda əsgərlər arasında geniş yayılıb. 1999-cu ildə Milli Ordudan tərxis olunmuş, ehtiyatda və istefada olan kapitan kimi yenidən elmi yaradıcılığa qayıtmısınız.

Elmi yaradıcılığınızın ikinci mərhələsi mövzu və problematika baxımından zəngin və məhsuldar olub. "Sabit Rəhmanın satirası" (B., 1998) və "Azərbaycan satirasının inkişaf problemləri" (1920-1998) (B., 2000) monoqrafiyalarınız milli satiramızın inkişaf yolu və ədəbi şəxsiyyətlərinin yaradıcılığını özündə ehtiva edir. Bu elmi araşdırmaların nəticəsi kimi filologiya elmlər doktoru elmi dərəcəsi və professor elmi adı almısınız. "Bir istiqlal yolçusu (Əbin Abidin həyatı, mühiti, yaradıcılığı)" (Bakı, Elm, 2003) monoqrafiyanız ilk dəfə olaraq Əmin Abid yaradıcılığını özündə ehtiva edir. Əmin Abidin "Seçilmiş əsərləri" (B., 2007), "Azərbaycan türklərinin ədəbiyyatı tarixi" (Bakı, Elm və təhsil, 20016), "Azəri ədəbiyyatı tarixi" (B.,2021) əsərlərini nəşrə hazırlamısınız (son iki əsəri Əli Şamillə birgə).

Sizin elmi yaradıcılığınızda nəzəri istiqamət və monoqrafiya janrı mühüm yer tutur. "Sabit Rəhman. Həyatı, mühiti, yaradıcılığı" (B., 2010), "Dramaturq, sənət, həqiqət" (B., 2011) və "XX yüzil Azərbaycan ədəbiyyatı: mərhələlər, istiqamətlər, problemlər" (B., 2015) bu cür monoqrafiyalardandır. Sonuncu monoqrafiya XX yüzil Azərbaycan ədəbiyyatının inkişaf yolunu bir çox istiqamətlər və problemlər baxımından özündə ehtiva etdiyi üçün bu sahədə mötəbər araşdırmalardan hesab olunur. Eyni fikri "Azərbaycan mühacirət ədəbiyyatı: təşəkkülü, problemləri, şəxsiyyətləri" (B., 2017), "Türkçlüyün üçlü formulu: nəzəri və tarixi aspektləri" (B., 2019), "Yeni Hindistanın manifesti" (B., 2021) monoqrafiyaları haqqında da demək mümkündür. "Nəriman Əbdülrəhmanlının nəsri: tarixilik və müasirliyin vəhdəti" (B., 2013) monoqrafiyanız yazıçı yaradıcılığını bütün tərəflərilə təhlil edir.

Sizin fəaliyyətinizin böyük bir hissəsi ali məktəblərdə gənclərə filoloji fikri tədris etməklə keçib. Bakı Slavyan Universiteti, Xəzər Universiteti, Türkiyənin Kars Kafkas Universitetindəki mühazirələriniz minlərlə tələbənin formalaşmasında mühüm rol oynayıb. Məhz bu fəaliyyətin nəticəsi kimi sizin 3 cildlik "XX əsr Azərbaycan ədəbiyyatı" dərsliyiniz, bir neçə metodik vəsaitiniz və proqramlarınız dərc olunub. Azərbaycan təhsil sistemində ilk dəfə olaraq tək müəllifin 3 cildlik fundamental dərsliyi çap olunub.

Siz artıq on ilə yaxındır ki, Asiya xalqları ədəbiyyatını araşdırırsınız: Koreya, yapon, hind, Pakistan, Çin, əfqan ədəbiyyatı ilə bağlı araşdırmalarınız vardır. Eyni zamanda dünyanın 20-ə yaxın ölkəsində (Türkiyə, Almaniya, Polşa, Qazaxıstan, Çin, Pakistan, Hindistan, Özbəkistan və s.) elmi konfranslarda məruzələr oxumuş, çıxışlar etmisiniz. Özbəkistanla bağlı apardığınız araşdırmalara görə Respublikanın "Mənəviyyat fədaisi" medalı ilə təltif olunmusunuz.

Siz AMEA Veteranlar Şurasının sədri, Qarabağ müharibəsi veteranı, Azərbaycan Yazıçılar Birliyinin və Jurnalistlər Birliyinin üzvü kimi ictimai-mədəni proseslərdə aktiv iştirak edir, milli və dövlətçi mövqeyinizlə fərqlənirsiniz.

Hörmətli Bədirxan Əhmədli!

Sizi bir daha 70 illik yubileyiniz münasibətilə təbrik edir, cansağlığı, yeni yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**